UNHCR
BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ
QAÇQINLAR ÜZRƏ ALİ KOMİSSARLIĞI

# Vətəndaşlığı olmayan şəxslərin statusu haqqında KONVENSİYA

# Vətəndaşlığı olmayan şəxslərin statusu haqqında Konvensiya

## Preambula

**Razılığa gələn Ali Tərəflər,**

Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin və Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 1948-ci il dekabrın 10-da qəbul etdiyi İnsan hüquqları haqqında Ümumi Bəyannamənin bütün insanların, heç bir ayrı-seçkilik qoyulmadan əsas hüquq və azadlıqlardan istifadə etməsi prinsipini bərqərar etdiyini nəzərə alaraq,

Birləşmiş Millətlər Təşkilatının dəfələrlə vətəndaşlığı olmayan şəxslərin taleyindən dərin narahatlıq keçirdiyini və vətəndaşlığı olmayan şəxslərin göstərilən əsas hüquq və azadlıqlardan mümkün qədər geniş istifadə etmələrinə səy göstərdiyini nəzərə alaraq,

qaçqın olan vətəndaşlığı olmayan şəxslərin Qaçqınların statusu haqqında 1951-ci il 28 iyul tarixli Konvensiyası ilə əhatə olunduqlarını və bu Konvensiyanın əhatə etmədiyi çoxlu vətəndaşlığı olmayan şəxsin olduğunu nəzərə alaraq,

vətəndaşlığı olmayan şəxslərin vəziyyətini beynəlxalq sazişlə tənzimləməyin və yaxşılaşdırmağın arzu edildiyini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

# I fəsil
# Ümumi müddəalar

## Maddə 1. «Vətəndaşlığı olmayan şəxs» anlayışının tərifi

1. Bu Konvensiyada «vətəndaşlığı olmayan şəxs» anlayışı altında heç bir dövlət tərəfindən öz qanununa görə vətəndaş sayılmayan şəxs nəzərdə tutulur.

2. Bu Konvensiyanın müddəaları aşağıdakılara şamil edilmir:

i) hazırda Birləşmiş Millətlər Təşkilatının Qaçqınların İşi üzrə Ali komissarından başqa, Birləşmiş Millətlər Təşkilatının digər orqan və qurumlarının köməyindən və himayəsindən istifadə edən şəxslərə;

ii) yaşadıqları ölkənin səlahiyyətli hakimiyyət orqanlarının həmin ölkənin vətəndaşlığı ilə bağlı hüquq və vəzifələrini tanıdığı şəxslərə;

iii) barələrində aşağıdakıları ehtimal etməyə ciddi əsaslar olan şəxslərə:

a) barələrində tədbir görülmək məqsədilə tərtib edilmiş beynəlxalq aktlarda tərəfləri verilən cinayət əməllərində-sülhə qarşı cinayət, hərbi cinayət və ya bəşəriyyətə qarşı cinayət törətmələrini;

b) onlara sığınacaq vermiş ölkənin hüdudlarından kənarda, bu ölkəyə buraxılana qədər qeyri-siyasi xarakterli ağır cinayət törətmələrini;

c) Birləşmiş Millətlər Təşkilatının məqsəd və prinsiplərinə zidd əməllərdə təqsirli olduqlarını.

## Maddə 2. Ümumi öhdəliklər

Hər bir vətəndaşlığı olmayan şəxsin olduğu ölkə barəsində öhdəlikləri var. Həmin öhdəliklərə görə o, konkret olaraq qanun və qərarlara, həmçinin ictimai asayişi qorumaq üçün görülən tədbirlərə tabe olmalıdır.

## Maddə 3. Ayrı-seçkiliyin yolverilməzliyi

Razılığa gələn Dövlətlər bu Konvensiyanın müddəalarını vətəndaşlığı olmayan şəxslərə onların irqinə, dininə və ya ölkə mənşəyinə görə heç bir ayrı-seçkilik qoymadan tətbiq edəcəklər.

## Maddə 4. Dini əqidələr

Razılığa gələn Dövlətlər ərazilərindəki vətəndaşlığı olmayan şəxsləri dinlərinə sitayiş etmək və övladlarının dini tərbiyəsini təmin etmək azadlığı barədə, heç olmasa, öz vətəndaşlarına yaratdıqları qədər əlverişli şəraitlə təmin edəcəklər.

## Maddə 5. Konvensiyadan asılı olmayan hüquqlar

Bu Konvensiyanın heç bir müddəası Razılığa gələn hər hansı Dövlətin vətəndaşlığı olmayan şəxslərə bu Konvensiyadan asılı olmadan verdiyi heç bir hüquq və imtiyaza xələl gətirmir.

## Maddə 6. «Eyni şəraitdə» ifadəsi

Bu Konvensiyadakı «eyni şəraitdə» ifadəsi vətəndaşlığı olmayan şəxsin həmin şəxsin vətəndaşlığı olmayan şəxs olmadığı təqdirdə müvafiq hüquqdan istifadə etmək üçün yerinə yetirməli olduğu bütün tələbləri (ölkədə olmaq, yaxud yaşamaq müddətinə və şərtlərinə aid tələblər daxil olmaqla)-xarakterlərinə görə vətəndaşlığı olmayan şəxsin yerinə yetirmək iqtidarında olmadığı tələblər istisna olmaqlayerinə yetirməli olduğunu bildirir.

## Maddə 7. Qarşılıq prinsipindən istisnalar

1. Razılığa gələn Dövlətlər, bu Konvensiyaya əsasən vətəndaşlığı olmayan şəxslərə daha əlverişli hüquqi şərait yaradıldığı hallar istisna olmaqla, onları, ümumiyyətlə, əcnəbilərin istifadə etdikləri şəraitlə təmin edəcəklər.
2. Bütün vətəndaşlığı olmayan şəxslər Razılığa gələn Dövlətlərin ərazisində üç il yaşadıqdan sonra qanunvericilik yolu ilə qoyulmuş qarşılıq tələbindən azad ediləcəklər.
3. Razılığa gələn hər bir Dövlət vətəndaşlığı olmayan şəxslərin bu Konvensiya həmin dövlət üçün qüvvəyə mindiyi gün heç bir qarşılıq olmadan malik olduqları hüquq və imtiyazlarla onları gələcəkdə də təmin edəcəkdir.
4. Razılığa gələn Dövlətlər vətəndaşlığı olmayan şəxslərə 2-ci və 3-cü bəndlərə əsasən malik olduqlarından əlavə hüquq və imtiyazlar verilməsinin mümkünlüyünə və 2-ci və 3-cü bəndlərdə nəzərdə tutulan şərtlərə cavab verməyən vətəndaşlığı olmayan şəxslərin qarşılıq tələbindən azad olunmaq imkanına xeyirxahlıqla yanaşacaqlar.
5. 2-ci və 3-cü bəndlərin müddəaları istər bu Konvensiyanın 13, 18, 19, 21 və 22-ci maddələrində xatırlanan hüquq və imtiyazlara, istərsə də onda nəzərdə tutulmayan hüquq və imtiyazlara tətbiq edilir.

## Maddə 8. Müstəsna tədbirlərdən istisnalar

Razılığa gələn Dövlətlər xarici dövlətin vətəndaşları olan və ya vaxtilə vətəndaşları olmuş şəxslərə, onların əmlakına, yaxud mənafelərinə münasibətdə tətbiq edilə bilən müstəsna tədbirləri vətəndaşlığı olmayan şəxslərə münasibətdə yalnız onların əvvəllər həmin dövlətin vətəndaşlığına malik olmalarına əsaslanıb tətbiq etməyəcəklər. Qanunvericiliyi bu maddədə ifadə edilmiş ümumi prinsipin tətbiqinə yol verməyən istisnalar müəyyən edəcəklər.

## Maddə 9. Müvəqqəti tədbirlər

Bu Konvensiyanın heç bir müddəası Razılığa gələn Dövləti

müharibə vaxtı və ya digər fövqəladə və müstəsna şərait mövcud olduqda dövlət təhlükəsizliyinin mənafeyi naminə bu və ya digər müəyyən şəxs barəsində Razılığa gələn bu Dövlət həmin şəxsin həqiqətən vətəndaşlığı olub-olmadığını və dövlət təhlükəsizliyinin mənafeyi naminə onun barəsində belə tədbirlərin tətbiqini davam etdirməyin zəruri olduğunu aydınlaşdırana qədər lazım saydığı müvəqqəti tədbirləri görmək hüququndan məhrum etmir.

## Maddə 10. Yaşayışın fasiləsizliyi

1. Vətəndaşlığı olmayan şəxs İkinci Dünya müharibəsi zamanı deportasiya edilərək Razılığa gələn Dövlətlərdən birinin ərazisinə göndərilmişsə və orada yaşayırsa, bu məcburi yaşayış müddətinə həmin ərazi hüdudlarında qanuni yaşayış müddəti kimi baxılacaqdır.

2. Vətəndaşlığı olmayan şəxs İkinci Dünya müharibəsi zamanı Razılığa gələn Dövlətlərdən birinin ərazisindən deportasiya edilmişsə və bu Konvensiya qüvvəyə minənədək daimi yaşamaq məqsədilə oraya qayıtmışsa, belə deportasiyaya qədər və ondan sonra orada yaşadığı dövrə fasiləsiz yaşayış tələb edilən bütün hallarda vahid fasiləsiz dövr kimi baxılacaqdır.

## Maddə 11. Dənizçi vətəndaşlığı olmayan şəxslər

Vətəndaşlığı olmayan şəxslər Razılığa gələn Dövlətlərdən birinin bayrağı altında üzən gəmilərin ekipajının normal qulluqçuları olan şəxslərdirsə, onda bu dövlət həmin şəxslərin öz ərazisində məskunlaşmasına və onlara yol sənədlərinin verilməsinə və ya müvəqqəti olaraq öz ərazisinə gəlmək hüququ verilməsinə-məsələn, onların hər hansı digər bir ölkədə məskunlaşmasını asanlaşdırmaq məqsədilə xeyirxah yanaşacaqdır.

# II fəsil
# Hüquqi status

## Maddə 12. Şəxsi status

1. Vətəndaşlığı olmayan şəxsin şəxsi statusu onun üçün domisil olan ölkənin, beləsi yoxdursa, yaşadığı ölkənin qanunları ilə müəyyən edilir.

2. Razılığa gələn Dövlətlər vətəndaşlığı olmayan şəxsin şəxsi statusu ilə bağlı əvvəllər əldə etdiyi hüquqlara, konkret desək, nikah qurmaqla əldə etdiyi hüquqlara, lazım gəldikdə, həmin dövlətin qanunlarında göstərilən rəsmiyyət yerinə yetirilməklə, riayət edəcəklər; bir şərtlə ki, müvafiq hüquq, bu şəxs vətəndaşlığı olmayan şəxs olmasaydı belə, həmin dövlətin qanunları ilə tanınan hüquqlardan olsun.

## Maddə 13. Daşınar və daşınmaz əmlak

Razılığa gələn Dövlətlər daşınar və daşınmaz əmlak əldə etmək və bununla bağlı digər hüquqlar barəsində, habelə daşınar və daşınmaz əmlaka aid icarə müqavilələri və digər müqavilələr barəsində vətəndaşlığı olmayan şəxsləri mümkün qədər daha əlverişli şəraitlə və istənilən halda, əcnəbilərin eyni şəraitdə istifadə etdiklərindən əlverişsiz olmayan şəraitlə təmin edəcəklər.

## Maddə 14. Müəlliflik və sənaye hüququ

Sənaye hüquqlarını-yəni ixtira, dizayn və ya modellərə, ticarət markalarına, firmanın adına dair hüquqların və ədəbi, bədii və elmi əsərlərə dair hüquqların qorunmasına gəlincə, vətəndaşlığı olmayan şəxslər, adətən yaşadıqları ölkənin vətəndaşlarının istifadə etdikləri müdafiə ilə təmin olunacaqlar. Onlar Razılığa gələn hər hansı digər Dövlətin ərazisində həmin ərazidə, adətən yaşayan vətəndaşların təmin olunduqları müdafiə ilə təmin ediləcəklər.

## Maddə 15. Assosiasiyalar hüququ

Razılığa gələn Dövlətlər onların ərazisində qanuni surətdə yaşayan vətəndaşlığı olmayan şəxsləri siyasi xarakter daşımayan və qazanc məqsədi güdməyən assosiasiyalar barəsində və həmkarlar ittifaqları barəsində eyni şəraitdə əcnəbi vətəndaşların şəraitinə müvafiq ən əlverişli şəraitlə təmin edəcəklər.

## Maddə 16. Məhkəməyə müraciət etmək hüququ

1. Hər bir vətəndaşlığı olmayan şəxsin Razılığa gələn bütün Dövlətlərin ərazisində azad surətdə məhkəməyə müraciət etmək hüququ var.

2. Hər bir vətəndaşlığı olmayan şəxs adətən yaşayış yeri olan Razılığa gələn Dövlətin ərazisində məhkəməyə müraciət etmək hüququ barədə, o cümlədən hüquqi yardım və məhkəmə xərclərinin ödənilməsini təmin etməkdən azad olunmaq məsələlərində həmin dövlətin vətəndaşlarının istifadə etdikləri şəraitdən istifadə edəcəkdir.

3. Hər bir vətəndaşlığı olmayan şəxs onun, adətən yaşadığı ölkədən başqa, bütün ölkələrdə 2-ci bənddə xatırlanan məsələlər barəsində onun, adətən yaşadığı ölkənin vətəndaşlarına yaradılan şəraitlə təmin ediləcəkdir.

# III fəsil
# Gəlir gətirən məşğuliyyət

## Maddə 17. Muzdlu iş

1. Razılığa gələn Dövlətlər onların ərazisində qanuni surətdə yaşayan vətəndaşlığı olmayan şəxslərin muzdlu iş hüququ barəsində onları xarici dövlətlərin vətəndaşlarının eyni şəraitdə istifadə etdikləri ən əlverişli hüquqi şəraitlə təmin edəcəklər.

2. Razılığa gələn Dövlətlər bütün vətəndaşlığı olmayan şəxslərin, o cümlədən onların ərazisinə- işçi qüvvəsi toplamaq proqramlarının yerinə yetirilməsi çərçivəsində və ya immiqrasiya planlarına əsasən gəlmiş vətəndaşlığı olmayan şəxslərin muzdlu iş barəsində hüquqlarının öz vətəndaşlarının hüquqları ilə bərabərləşdirilməsi imkanlarına xeyirxahlıqla yanaşacaqlar.

## Maddə 18. Şəxsi müəssisədə iş

Razılığa gələn Dövlətlər onların ərazisində qanuni surətdə yaşayan vətəndaşlığı olmayan şəxsləri müstəqil şəkildə kənd təsərrüfatı, sənaye, sənətkarlıq və ticarətlə məşğul olmaq hüququ, həmçinin ticarət və sənaye birlikləri təsis etmək hüququ barəsində mümkün qədər əlverişli hüquqi şəraitlə və istənilən halda, əcnəbilərin, adətən, eyni şəraitdə istifadə etdiklərindən əlverişsiz olmayan şəraitlə təmin edəcəklər.

## Maddə 19. Azad peşələr

Razılığa gələn hər bir Dövlət onun ərazisində qanuni surətdə yaşayan və həmin dövlətin səlahiyyətli hakimiyyət orqanları tərəfindən tanınan diplomu olan, azad peşələrlə məşğul olmaq istəyən vətəndaşlığı olmayan şəxsləri mümkün qədər daha əlverişli şəraitlə və istənilən halda, əcnəbilərin eyni şəraitdə istifadə etdiklərindən əlverişsiz olmayan hüquqi şəraitlə təmin edəcəklər.

# IV fəsil
# Sosial hamilik

## Maddə 20. Pay sistemi

Bütün əhali üçün icbari olan defisit məhsulların ümumi bölgüsünü tənzimləyən pay sisteminin mövcud olduğu yerlərdə bu cür sistem vətəndaşlarla bərabər əsaslarda vətəndaşlığı olmayan şəxslərə də tətbiq edilir.

## Maddə 21. Mənzil məsələsi

Mənzil məsələsi qanunlar və ya qərarlarla tənzimləndiyi, yaxud dövlət hakimiyyətinin nəzarəti altında olduğu halda Razılığa gələn Dövlətlər onların ərazisində qanuni surətdə yaşayan vətəndaşlığı olmayan şəxsləri mümkün qədər daha əlverişli hüquqi şəraitlə və istənilən halda, əcnəbilərin, adətən, eyni şəraitdə istifadə etdiklərindən əlverişsiz olmayan şəraitlə təmin edəcəklər.

## Maddə 22. Dövlət təhsili

1. Razılığa gələn Dövlətlər ibtidai təhsil barəsində vətəndaşlığı olmayan şəxsləri öz vətəndaşlarını təmin etdikləri hüquqi şəraitlə təmin edəcəklər.

2. Razılığa gələn Dövlətlər ibtidai təhsildən əlavə, dövlət təhsilinin digər növlərində oxumaq imkanı, xarici attestatların, diplomların və dərəcələrin tanınması, təhsil haqqından və xərclərindən azad edilmə, həmçinin təqaüd verilməsi barəsində vətəndaşlığı olmayan şəxsləri mümkün qədər daha əlverişli şəraitlə və istənilən halda, əcnəbilərin, adətən, eyni şəraitdə istifadə etdiklərindən əlverişsiz olmayan şəraitlə təmin edəcəklər.

## Maddə 23. Hökumət yardımı

Razılığa gələn Dövlətlər onların ərazisində qanuni surətdə yaşayan

vətəndaşlığı olmayan şəxsləri hökumət yardımı və dəstəyi barəsində öz vətəndaşlarının istifadə etdikləri şəraitlə təmin edəcəklər.

## Maddə 24. Əmək qanunvericiliyi və sosial təminat

1. Razılığa gələn Dövlətlər onların ərazisində qanuni surətdə yaşayan vətəndaşlığı olmayan şəxsləri aşağıdakılar barəsində öz vətəndaşları ilə eyni şəraitlə təmin edəcəklər:

a) qanun və qərarlarla tənzimləndiyi və ya inzibati hakimiyyətin nəzarətində olduğu qədər əməyə görə haqq, ailə üçün müavinətlər,-belə müavinətlər əməkhaqqına daxildirsə,-iş gününün uzunluğu, iş vaxtından əlavə iş, ödənişli məzuniyyətlər, evdə görülən işin məhdudlaşdırılması, muzdla işləyənlər üçün, habelə şagirdlik və peşə hazırlığı üçün minimum yaş həddi, qadın və yeniyetmə əməyi və kollektiv müqavilələrin üstünlüklərindən istifadə etmək məsələlərində;

b) aşağıdakı məhdudiyyətlərlə sosial təminat məsələsində (daxili qanun və qərarlara əsasən sosial təminat sistemi ilə nəzərdə tutulan işdə bədbəxt hadisələrə, peşə xəstəliklərinə, analığa, xəstəliklərə, əlilliyə, ahıllığa, ölümə, işsizliyə, ailə qarşısında borca və digər hallara dair hüquq normaları):

i) əldə edilmiş hüquqları və əldə edilmə prosesində olan hüquqları lazımi qoruyub-saxlama qaydası mövcud ola bilər;

ii) yaşayış ölkəsinin qanunları və ya qaydaları bütünlüklə dövlət vəsaitindən ödənilən tam, yaxud qismən müavinətlərin və normal təqaüd almaq üçün tələb edilən haqlar barədə bütün şərtləri yerinə yetirməyən şəxslərə ödənilən müavinətlərin alınmasının xüsusi qaydasını müəyyən edə bilər.

2. Faydalanan şəxsin Razılığa gələn Dövlətin ərazisində yaşamaması işdə baş vermiş bədbəxt hadisə və ya peşə xəstəliyi nəticəsində Ölmüş vətəndaşlığı olmayan şəxsə görə kompensasiya almaq hüququna təsir göstərməyəcəkdir.

3. Razılığa gələn Dövlətlər vətəndaşlığı olmayan şəxsləri sosial təminata aid əldə edilmiş hüquqların və əldə edilmə prosesində olan hüquqların qo- runub-saxlanmasına dair aralarında bağlanmış və ya gələcəkdə bağlana bilən sazişlərdən yalnız xatırlanan sazişləri imzalamış dövlətlərin vətəndaşlarına tətbiq edilən şərtlərə riayət olunmaqla irəli gələn imtiyazlarla təmin edəcəklər.

4. Razılığa gələn Dövlətlər vətəndaşlığı olmayan şəxslərə, mümkün olduğu qədər, Razılığa gələn həmin Dövlətlərlə bu Konvensiyada iştirak etməyən dövlətlər arasında hər bir müəyyən məqamda qüvvədə ola bilən bu qəbil sazişlərdən irəli gələn imtiyazlar verilməsi məsələsinə xeyirxahlıqla yanaşacaqlar.

# V fəsil
# İnzibati tədbirlər

## Maddə 25. İnzibati yardım

1. Vətəndaşlığı olmayan şəxslərin hər hansı bir hüquqdan istifadə etməsi üçün, adətən, bu vətəndaşlığı olmayan şəxslərin müraciət edə bilmədikləri xarici dövlətin hakimiyyət orqanlarının yardımına ehtiyac olduqda, xatırlanan vətəndaşlığı olmayan şəxslərin ərazisində yaşadıqları Razılığa gələn Dövlətlər öz hakimiyyət orqanlarının onlara belə yardımı göstərməsi üçün tədbirlər görəcəklər.

2. 1-ci bənddə xatırlanan hakimiyyət orqanı və ya orqanları vətəndaşlığı olmayan şəxsləri əcnəbilərə, adətən, vətəndaşı olduqları dövlətlərin hakimiyyət orqanları tərəfindən, yaxud hakimiyyət orqanları vasitəsilə verilən sənədlər və ya vəsiqələrlə təchiz edəcək, yaxud öz nəzarətləri altında təchiz olunmalarını təmin edəcəklər.

3. Bu qayda ilə verilmiş sənədlər və ya vəsiqələr əcnəbilərə vətəndaşı olduqları dövlətlərin hakimiyyət orqanları tərəfindən, yaxud hakimiyyət orqanları vasitəsilə verilən rəsmi sənədləri əvəz edəcək və onların etibarsız olduğu sübut edilməyincə etibarlı sayılacaqdır.

4. Yoxsul şəxslərə edilən xüsusi güzəştlər istisna olmaqla, bu maddədə xatırlanan xidmətlərə görə haqq alına bilər; lakin belə haqq çox olmamalı və analoji xidmətlərə görə vətəndaşlardan alınan haqqa müvafiq olmalıdır.

5. Bu maddənin müddəaları 27 və 28-ci maddələrin müddəalarına xələl gətirmir.

## Maddə 26. Yerdəyişmə azadlığı

Razılığa gələn hər bir Dövlət onun ərazisində qanuni surətdə yaşayan vətəndaşlığı olmayan şəxslərə yaşayış yeri seçmək və ərazisi hüdudlarında sərbəst yerdəyişmə hüququ adətən, eyni şəraitdə əcnəbilərə tətbiq edilən bütün qaydalara əməl edilmək şərtilə verəcəkdir.

## Maddə 32. Naturalizasiya

Razılığa gələn Dövlətlər, imkan daxilində, vətəndaşlığı olmayan şəxslərin assimilyasiyasını və naturalizasiyasını asanlaşdıracaqlar. O cümlədən onlar naturalizasiya işini sürətləndirmək və bununla bağlı rüsum və xərclərin mümkün qədər azaldılması üçün özlərindən asılı olan hər şeyi edəcəklər.

# VI fəsil
# Yekun müddəalar

## Maddə 33. Milli qanunvericilik aktları haqqında məlumatlar

Razılığa gələn Dövlətlər bu Konvensiyanı həyata keçirmək məqsədilə qəbul etdikləri qanun və qərarların mətnlərini Birləşmiş Millətlər Təşkilatının Baş katibinə bildirirlər.

## Maddə 34. Mübahisələrin həlli

Bu Konvensiyanın təfsirinə və tətbiqinə dair başqa üsulla həll edilə bilməyən mübahisələr mübahisə edən Tərəflərdən hər hansı birinin tələbi ilə Beynəlxalq Ədalət Məhkəməsinə veriləcəkdir.

## Maddə 35. İmzalama, təsdiqetmə və qoşulma

1. Bu Konvensiya 1965-ci il dekabrın 31-dək Birləşmiş Millətlər Təşkilatının Mərkəzi idarələrində imzalanmaq üçün açıq olacaqdır.

2. Bu Konvensiya aşağıdakıların adından imzalanmaq üçün açıq olacaqdır:

a) Birləşmiş Millətlər Təşkilatına üzv olan istənilən dövlətin;

b) Birləşmiş Millətlər Təşkilatının Vətəndaşlığı olmayan şəxslərin statusuna dair Konfransında iştirak etməyə dəvət almış istənilən digər dövlətin; və

c) Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin onu imzalamağa və ya ona qoşulmağa dəvət edəcəyi istənilən dövlətin.

3. Bu Konvensiya təsdiq edilməlidir, təsdiqnamələr Birləşmiş

Millətlər Təşkilatı Baş katibinə saxlanılmağa verilir.

4. Bu Konvensiya bu maddənin 2-ci bəndində xatırlanan dövlətlərin qoşulması üçün açıq olacaqdır. Qoşulma bu haqda sənədin Birləşmiş Millətlər Təşkilatı Baş katibinə saxlanılmağa verilməsi yolu ilə həyata keçirilir.

## Maddə 36. Konvensiyanın ərazi tətbiqinə dair müddəalar

1. Hər hansı bir dövlət Konvensiyanı imzalayarkən və ya təsdiq edərkən, yaxud ona qoşularkən bu Konvensiyanın qüvvəsinin həmin dövlətin beynəlxalq əlaqələrinə görə məsuliyyət daşıdığı bütün, yaxud bəzi ərazilərə tətbiq olunduğunu bəyan edə bilər. Belə bəyanat Konvensiyanın həmin dövlət üçün qüvvəyə mindiyi gün qüvvəyə minir.

2. Bundan sonra istənilən vaxt bu Konvensiyanın qüvvəsinin belə tətbiqi Birləşmiş Millətlər Təşkilatının Baş katibinə ünvanlanmış bildirişlə elan edilməlidir və Birləşmiş Millətlər Təşkilatının Baş katibi bu bildirişi alandan sonra doxsanıncı gün, yaxud bu Konvensiya həmin dövlət üçün qüvvəyə mindiyi gün, bu sonuncu tarix daha sonra gəlirsə, qüvvəyə minəcəkdir.

3. Hər bir maraqlı dövlət imzalama, təsdiq etmə, yaxud qoşulma zamanı bu Konvensiyanın yayılmadığı ərazilər barəsində, bu Konvensiyanın tətbiqinin həmin ərazilərə şamil edilməsi üçün-lazım gəldikdə, konstitusiya xarakterli səbəblərə görə belə ərazilərin hökumətlərinin razılığı ilə zəruri tədbirlər görülməsinin mümkünlüyü məsələsinə baxacaqdır.

## Maddə 37. Federativ dövlətlər haqqında müddəalar

Federativ və ya qeyri-qanuni tipli dövlətlərə aşağıdakı müddəalar tətbiq ediləcəkdir:

a) federal hökumətin bu Konvensiyanın federal qanunvericilik hakimiyyətinin yurisdiksiyasına aid maddələri barəsində öhdəlikləri

göstərilən hüdudlarda bu Konvensiyanın federativ dövlət olmayan tərəflərinin öhdəliklərinə müvafiq olacaqdır;

b) federal hökumət ilk imkan düşən kimi, federasiyaya daxil olan ştatların, əyalətlərin və ya kantonların lazımi hakimiyyət orqanlarını bu Konvensiyanın federasiyasının konstitusiya quruluşuna əsasən qanunvericilik tədbirləri qəbul etməli olmayan ştatların, əyalətlərin və ya kantonların qanunvericilik yurisdiksiyasına aid maddələri barəsində özünün münasib rəyi ilə birlikdə xəbərdar edəcəkdir;

c) bu Konvensiyanın tərəfi olan federal dövlət Razılığa gələn hər hansı başqa Dövlətin Birləşmiş Millətlər Təşkilatının Baş katibi vasitəsilə verilən tələbi əsasında federasiyada və onun tərkib hissələrində Konvensiyanın hər hansı konkret müddəası barəsində mövcud olan qanun və praktika haqqında-bu müddəanın qanunvericilik yolu ilə, yaxud digər yolla nə dərəcədə həyata keçirilməsi göstərilməklə arayış təqdim edəcəkdir.

## Maddə 38. Qeyd-şərtlər

1. Bu Konvensiyanı hər bir dövlət imzalayarkən, təsdiq edərkən və ya qoşularkən onun maddələrinə, 1, 3, 4, 16(1) və 33-42-ci maddələr istisna olmaqla, qeyd-şərtlər edə bilər.

2. Bu maddənin 1-ci bəndinə müvafiq olaraq qeyd-şərt irəli sürmüş hər hansı dövlət istənilən vaxt Birləşmiş Millətlər Təşkilatının Baş katibinə bildiriş göndərməklə bu qeyd-şərtdən imtina edə bilər.

## Maddə 39. Qüvvəyə minmə

1. Bu Konvensiya altıncı təsdiqnamə və ya qoşulma haqqında sənəd saxlanca verilən gündən sonra doxsanıncı gün qüvvəyə minir.

2. Konvensiyanı altıncı təsdiqnamə və ya qoşulma haqqında sənəd saxlanca veriləndən sonra təsdiq etmiş, yaxud ona qoşulmuş bütün dövlətlər üçün bu Konvensiya müvafiq dövlətin öz təsdiqnaməsini və ya qoşulma haqqında sənədini saxlanılmağa verdiyi gündən sonrakı

doxsanıncı gün qüvvəyə minir.

## Maddo 40. Denonsasiya

1. Razılığa gələn hər hansı Dövlət istənilən vaxt Birləşmiş Millətlər Təşkilatı Baş katibinin adına bildiriş göndərməklə bu Konvensiyanı denonsasiya edə bilər.

2. Belə denonsasiya Razılığa gələn müvafiq Dövlət üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibi həmin bildirişi alan gündən bir il sonra qüvvəyə minir.

3. 36-ci maddəyə müvafiq olaraq bəyanat vermiş və ya bildiriş göndərmişənilən dövlət bundan sonra istənilən vaxt Birləşmiş Millətlər Təşkilatı Baş katibinin adına bildiriş göndərməklə bəyan edə bilər ki, Baş katib həmin bildirişi alandan bir il sonra bu Konvensiya müvafiq əraziyə tətbiq olunmayacaq.

## Maddə 41. Yenidən baxma

1. Razılığa gələn hər hansı Dövlət Birləşmiş Millətlər Təşkilatı Baş katibinin adına bildiriş göndərməklə istənilən vaxt bu Konvensiyaya yenidən baxılmasını tələb edə bilər.

2. Belə tələblə bağlı hər hansı tədbirlərin görülməsi lazım gələrsə, Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi müvafiq tədbirləri tövsiyə edəcəkdir.

## Maddə 42. Birləşmiş Millətlər Təşkilatı Baş katibinin göndərdiyi bildirişlər

Birləşmiş Millətlər Təşkilatının Baş katibi Birləşmiş Millətlər Təşkilatının bütün üzvlərinə və onun 35-ci maddədə xatırlanan üzvü olmayan dövlətlərə aşağıdakılar barədə xəbər verir:

a) 35-ci maddəyə müvafiq olaraq imzalama, təsdiqetmə və qoşulmalar;

b) 36-cı maddəyə müvafiq olaraq bəyanat və bildirişlər;

c) 38-ci maddəyə müvafiq olaraq qeyd-şərtlər və qeyd-şərtlərdən imtinalar;

d) 39-cu maddəyə müvafiq olaraq bu Konvensiyanın qüvvəyə mindiyi tarix;

e) 40-cı maddəyə müvafiq olaraq denonsasiyalar və bildirişlər;

f) 41-ci maddəyə müvafiq olaraq daxil olmuş yenidən baxma tələbləri.

Bunun təsdiqi olaraq, lazımi qaydada müvəkkil edilmiş aşağıda imza edənlər bu Konvensiyanı öz hökumətləri adından imzaladılar.

Min doqquz yüz əlli dördüncü il sentyabrın iyirmi səkkizində Nyu-Yorkda, fransız, ingilis və ispan dillərindəki mətnləri eyni qüvvəyə malik olan bir nüsxədə imzalanmışdır; həmin nüsxə saxlanılmaq üçün Birləşmiş Millətlər Təşkilatının arxivinə təhvil verilir və onun təsdiq edilmiş surətləri Birləşmiş Millətlər Təşkilatının bütün üzvlərinə və onun üzvü olmayan, 35-ci maddədə xatırlanan dövlətlərə göndərilir.

Azərbaycan Respublikası 1996-cı il 31 may tarixli 106-IQ nömrəli Qanunu ilə bu Konvensiyaya qoşulmuşdur.

Yığılmağa verilmişdir: 10.01.2018
Çapa imzalanmışdır: 25.01.2018

"Partners Group Azerbaijan" MMC tərəfindən ofset
üsulu ilə çap olunmuşdur.
Tiraj: 2000